**Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Rusiya Federasiyasının Daxili İşlər Nazirliyi arasında imzalanmış sənədlər haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

1. 2000-ci il fevralın 4-də Bakı şəhərində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Rusiya Federasiyasının Daxili İşlər Nazirliyi arasında imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Rusiya Federasiyası Daxili İşlər Nazirliyi arasında sərhədyanı regionların daxili işlər orqanlarının əməkdaşlığı haqqında Saziş;

2) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin 2000-ci ildə qarşılıqlı əlaqələri haqqında Protokol.

2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndinin 1-ci yarımbəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Rusiya Federasiyasının Hökumətini xəbərdar etsin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

**Bakı şəhəri, 15 iyul 2000-ci il**
**№ 469**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2959.**